Sizlərdən biriniz dəstəmaz alarsa, ilk olaraq suyu burnuna çəkib, ardınca nəfəsiylə onu çıxarmalıdır, kim təbii ehtiyacını ödədikdən sonra, daş parçası ilə təmizlənmək istərsə bunu tək sayda etsin

Əbu Hureyradan (Allah ondan razı olsun) Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) belə buyurduğu rəvayət edilir: "Sizlərdən biriniz dəstəmaz alarsa, ilk olaraq suyu burnuna çəkib, ardınca nəfəsiylə onu çıxarmalıdır, kim təbii ehtiyacını ödədikdən sonra, daş parçası ilə təmizlənmək istərsə bunu tək sayda etsin, (gecə) yuxudan oyandıqdan sonra, əlini dəstəmaz almaq üçün qaba salmadan öncə yusun, çünki o, əlinin harada gecələdiyini bilmir." İmam Muslimin rəvayət etdiyi ifadə bu cürdür: "Sizlərdən biriniz yuxudan oyanarsa, əlini üç dəfə yumadan qaba salmasın, çünki o, əlinin harada gecələdiyini bilmir.

[Səhih] [Müttəfəqun aleyhi(əl-Buxari və Musliminsəhih gördüyü hədislər)]

Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) təmizlənməyin bəzi əhkamlarını açıqlamışdır, bunlardan: Birincisi: kim dəstəmaz alarsa, suyu burnuna nəfəsiylə çəkməli, sonra nəfəsiylə də çıxarmalıdır. İkincisi: kim təbii ehtiyacını ödədikdən sonra önünü və ya arxasını sudan savayı başqa vasitəylə, məsələn, daş parçası və buna bənzər vasitələrlə təmizləmək istəsə, onu tək sayda, ən azı üç, ən çoxu isə nəcasətin çıxışını dayandıracaq və həmin yeri təmizləyəcək miqdarda etməlidir. Üçüncüsü: gecə yuxusundan oyanan şəxs dəstəmaz almaq üçün üç dəfə əlini qabın xaricində taki yumayınca, onu qaba salmasın, çünki o, əlinin harada gecələdiyini bilmir və nəcasətə bulaşdığından əmin də deyil. Və ola bilər ki, şeytan suyu qarışdıraraq insanlara zərərli və ya suyu korlayan şeyləri ona əlavə etsin.

https://sunnah.global/hadeeth/az/show/3033